

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 67 (20.968)

15 aprel 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Litva Respublikasının daxili işlər naziri Dailis Alfonsas Barakauskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Fransanın keçmiş xarici işlər naziri Über Vedrini qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə Feldyeger rabitəsi orqanlarında qulluqda fərqləndiklərinə və səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Şöbəsinin əməkdaşı da vardır.

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə:**

Mahmudov Vaqif Yunis oğlu

## "Muxtariyyət ili" ilə əlaqədar açıq dərs keçilib



***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Babək rayonunun Qahab və Nehrəm kənd 2 nömrəli tam orta məktəbləri şagirdlərinin iştirakı ilə açıq dərs keçilib.***

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə keçilən açıq dərsdə Nehrəm kənd 2 nömrəli tam orta məktəbin tarix müəllimi Ovni Muradov muxtar respublikanın yaranma tarixi, keçdiyi inkişaf yolu haqda danışıb. Bildirilib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası həm tarix və sivilizasiya baxımından, həm də yerləşdiyi geostrateji mövqeyinə görə həmişə maraq dairəsində olub. Bu səbəbdən bu qədim diyar tarixin müxtəlif dövrlərində istilalara, hücumlara məruz qalsa da, bütün çətinliklərə sinə gərib və öz varlığını qoruyub saxlaya bilib.

Vurğulanıb ki, vaxtilə qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşüb. Qədim diyarın muxtariyyət statusu məsələsində görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, məsələ ilə bağlı Moskvada apardığı danışıqlar, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktub, nəhayət, Rusiyanın Naxçıvan məsələsinə münasibətini müsbət istiqamətdə dəyişməsinə səbəb olub. Nəticədə, Naxçıvanın muxtariyyət statusu RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsində təsbit edilib. Elə həmin il oktyabrın 13-də RSFSR ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə arasında imzalanmış Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirilib. Həmin müqavilələrlə Rusiya, Türkiyə və Cənubi Qafqaz respublikaları Naxçıvana Azərbaycanın tərkibində muxtar qurum kimi tanınan beynəlxalq hüquqi təminat veriblər. Muxtar qurumlar yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi əlamətlərinə ayrılır. Naxçıvan Muxtar Respublikası dövlətin əsas ərazilərindən tam təcrid olunmuş vəziyyətə, geosiyasi əsasa görə yaranıb. Çünki Zəngəzur mahalının Ermənistana verilməsi ilə Naxçıvan diyarı Azərbaycanın əsas ərazilərindən aralı düşüb, nəticədə, muxtariyyət məsələsi gündəliyə gəlib.

Açıq dərsdə Qahab kənd tam orta məktəbinin tarix müəllimi Üzeyir Məmmədov şagirdlərə məlumat verib ki, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən, Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR tərkibində muxtar respublikaya çevrilib. Bununla da, qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirilib. Ötən əsrin sonlarında, bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanılmasına imkan yaradıb. Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm amil olub. Bu status ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvanın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizədə xüsusi əhəmiyyət kəsb edib.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

## Gənclər hərbi xidmətə yola salınır

***"Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 mart 2014-cü il tarixli Sərəncamına əsasən, dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Səxavət Salmanov açıb.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər silahlı qüvvələrimizin də hərtərəfli inkişafına və gücləndirilməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini təmin edən müasir və güclü ordumuz vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi ordumuzun istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Silahlı qüvvələrimizin muxtar respublikada yerləşən hərbi hissələrində maddi-texniki bazanın yüksək səviyyədə təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına göstərilən diqqət, xidmət üçün yaradılmış hərtərəfli şərait çağırışçı gənclərin də böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola salınmasına şərait yaradır.



Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Heydər Heydərov, Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Fərman Babayev övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini deyib, ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Polad Abdullayev Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Analoji tədbir Sədərək və Şahbuz rayonlarında da keçirilib.

## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclası keçirilmişdir

***Yeni Azərbaycan Partiyası (YAP) Şərur Rayon Təşkilatının şura iclasında YAP rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev əvvəlcə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aprelin 7-8-də Naxçıvan Muxtar Respublikasına növbəti səfəri barədə məlumat vermişdir.***

Qeyd olunmuşdur ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza hər səfəri yeni obyektlərin açılışı ilə yadda qalır. Dövlət başçısı Naxçıvana on bir dəfə səfər etmiş, bu səfərlər zamanı 70-dən artıq müxtəliftəyinatlı obyektlər istifadəyə verilmişdir. Ölkə rəhbəri növbəti səfəri çərçivəsində də bir sıra mühüm obyektlərin, həmçinin Şərur rayonundakı "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının açılışında iştirak etmişdir. Azərbaycan Prezidenti aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında bildirmişdir ki, Naxçıvan qədim Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır. Naxçıvanın eyni zamanda qədim dövlətçilik tarixi vardır. Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət, ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir.

Ölkə Prezidenti 1990-cı illərin əvvəllərində Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyətdən danışaraq vurğulamışdır ki, o vaxt Naxçıvanın taleyi daha dözülməz idi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın vəziyyəti çox ağır ola bilərdi.

Dövlət başçısı daha sonra demişdir: ***"Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir... Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır... Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. …Naxçıvan gözəlləşir, abadlaşır, gözəl, müasir şəhərə çevrilir. Nəinki Naxçıvan şəhəri, digər şəhərlər də... Siz naxçıvanlılar bunları yaxşı bilirsiniz. Sadəcə olaraq, mən öz təəssüratlarımı, öz sevincimi ifadə etmək istəyirəm ki, bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir".***

Vurğulanmışdır ki, cənab İlham Əliyevin muxtar respublikadakı hərtərəfli inkişaf və tərəqqini, bu sahədə muxtar respublika rəhbərinin fəaliyyətini yüksək qiymətləndirməsi bizdə böyük qürur hissi yaradır, həmçinin hər bir YAP üzvünün, bütün naxçıvanlıların məsuliyyətini bir daha artırır.

Əmir Babayev daha sonra rayon təşkilatının 2014-cü ilin birinci rübündə gördüyü işlər və qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd olunmuşdur ki, rayon təşkilatının idarə heyəti və şura üzvləri iş planına uyğun olaraq, cari ilin ilk üç ayında fəaliyyətlərini ərazi ilk təşkilatları ilə birgə davam etdirmiş, yerlərdə sakinlərlə görüşlər keçirmiş, onların problem və qayğıları ilə maraqlanmışlar. Bu gün də davam edən həmin görüşlərdə, əsasən, ölkəmizdə, eləcə də muxtar respublikada, o cümlədən Şərur rayonunda regional inkişaf proqramının icrası istiqamətində görülən işlər, tikinti-quruculuq, abadlıq və yaşıllaşdırma tədbirləri barədə ətraflı məlumat verilir, aqrar sahənin inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələr, yazlıq əkinlərin optimal müddətdə başa çatdırılması, məhsul istehsalının artırılması, daxili bazarın yerli məhsullar hesabına tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrdən danışılır.

Bildirilmişdir ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibindəki ərazi ilk təşkilatlarının uçotunda 10 min 550 nəfər partiya üzvü vardır ki, bunların da 2 min 888 nəfərini, yəni 27,4 faizini qadınlar, 3 min 601 nəfərini, yəni 34 faizini gənclər təşkil edir. Bu ilin ilk üç ayı ərzində Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş 33 nəfərin 31-i gəncdir. Ümumiyyətlə, gənclərin YAP sıralarına qəbulunda ildən-ilə artan temp müşahidə olunur ki, bu da onların ölkə rəhbərinin apardığı siyasəti dəstəklədiklərinin, iqtidar partiyasının üzvü olmaqdan qürur duyduqlarının bariz nümunəsidir.

Məruzəçi həmçinin bu il keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı qarşıda duran vəzifələrdən də danışmış, belə tədbirlərdə hər bir partiya üzvünün fəallıq nümayiş etdirməli olduğunu vurğulamışdır.

Müzakirələrdə Yeni Azərbaycan Partiyası rayon təşkilatının şura üzvü Ünbülbanu Musayeva, mərkəzi xəstəxana və Şərur Peşə Liseyi ilk partiya təşkilatlarının sədrləri Aftandil Məmmədli və Vəli Əhmədov, partiya üzvü Xəyalə İsmayılova çıxış etmişlər.

Yığıncaqda müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilmişdir.

**Xəbərlər şöbəsi**



# Müdrik və alicənab insan: akademik Zərifə xanım Əliyeva

***Aprelin 15-i görkəmli alim, Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anım günüdür. Gözlərə işıq, qəlblərə nur bəxş edən, dünyaya gəlişi bahara düşən Zərifə xanım Əliyeva bahar günündə də – 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur.***

Zərifə xanım Əliyeva tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.

İnsan dünyaya bir dəfə gəlir. Gəlir ki, şərəfli və dəyərli bir ömür yaşasın. Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, xalqa sədaqətli xidməti ilə yaddaşlarda qalsın. Bələlərinin yaşadıqları bitib-tükənmir, əməlləri, xeyirxah işləri daim xatırlanır. Əlbəttə, bu cür ömür yaşamaq da hamıya nəsib olmur. Yaşayanlarsa dünyanın ən xoşbəxt, bəxtəvər insanları kimi həyatlarını cəmiyyətin ictimai inkişafı və tərəqqisinə həsr edirlər. Tarixdə bu cür insanların həyat yolu gələcək nəsillərə örnək, nümunə olur. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva da məhz belə bir ömür yaşamışdır. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Azərbaycan səhiyyəsinin və tibb təhsili sisteminin mahir təşkilatçısı, qurucusu və yaradıcılarından olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım həkimlik sənətinə kiçik yaşlarından həvəs göstərmişdir. Onun uşaqlıq çağlarının ilk illəri Kəngərli rayonunun Şahtaxtı kəndində keçmiş, sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin inkişafına həsr edən böyük söz və sənət adamları – Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Səməd Vurğun və başqa görkəmli şəxsiyyətlərlə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan bir mühitdə boya-başa çatan Zərifə xanım zaman keçdikcə özündə Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirmişdir.

1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olan və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirən Zərifə Əliyeva Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara olan sonsuz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdır. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil almış və elmi tədqiqatla məşğul olmuşdur.

Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparmışdır. Alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən birini gözün histomikroskopik və histokimyəvi tədqiqi məsələsi təşkil etmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun “Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi”, “Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xarakteristikası” adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri görkəmli həkimin doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə Əliyeva “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan H.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Dissertasiya çox yüksək qiymətləndirilmiş və 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi adı verilmişdir. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd edək ki, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın idi. 1983-cü ildə gərgin elmi-təşkilati fəaliyyətinə və oftalmologiyanın inkişafında xüsusi xidmətlərinə görə isə o, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Zərifə Əliyeva bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Onun zəngin pedaqoji və elmi təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir. Alimin elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndərimiz deyirdi: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

Zərifə xanım nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə də ciddi məşğul olmuş, həmin sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan “İridodiaqnostikanın əsasları” Bakıda, “İridodiaqnostika” isə 1988-ci ildə Moskvada nəşr olunmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Bu mənada oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiya məkanında məşhurlaşdırmışdır. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlamışdır. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasındadır. Akademik uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmış, “Şin istehsalatında gözün peşə patologiyası”, “Xronik yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” adlı qiymətli monoqrafiyalar yazmışdır.

Zərifə xanım Əliyeva öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer vermişdir. O, bu mövzuya dair baxışlarını həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmış “Həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında geniş şərh etmişdir. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Alim haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: ***“Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.***

Zərifə xanım ötən əsrin 60-70-ci illərində Azərbaycan Elmlər Akademiyası Oftalmologiya İnstitutunun ordinatoru kimi Naxçıvanda keçirilən səyyar seminarda iştirak etmək üçün Bakıdan göndərilmiş nümayəndə heyətinin tərkibində muxtar respublikaya gəlmişdir. Onun elmi seminardakı yüksək nəzəri səviyyəyə malik çıxışı və iralı sürdüyü təkliflər traxoma xəstəliklərinə qarşı mübarizədə yeni istiqamətlər müəyyənləşdirmişdir. Naxçıvan oftalmoloqları Zərifə xanım Əliyevanın əsaslandırılmış təkliflərindən istifadə edərək, onun ideyası ilə yaranmış iridodioqnostika vasitəsilə göz xəstəliklərinin düzgün və operativ müalicə edilməsinə nail ola bilmişlər.

Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Akademik həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. O, yaxşı ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə vurğun insan idi. Zərifə xanım Əliyeva müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev bu barədə deyirdi: ***“Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi”.***

Görkəmli akademik həm də ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin anasıdır. Bu gün dövlət başçısı İlham Əliyev xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadır. Ötən il görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyi ilə bağlı həsr olunmuş təntənəli mərasimdə dövlət başçısı demişdir: ***“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri, ana əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur”.***

Zərifə xanımın ömür yolu, elmi fəaliyyəti çox zəngindir. Ölkəmizdə onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə Əliyevanın adını daşıyır. Kəngərli rayonunun Şahtaxtı kəndində görkəmli oftalmoloqun adını daşıyan məktəb son illərin möhtəşəm quruculuq nümunələrindəndir. Muxtar respublikamızda müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından biri də 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan Naxçıvan Şəhər Poliklinikasıdır. Bu səhiyyə ocağı tamamilə yenidən qurulmuş, yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılmışdır.

***Mənsub olduğu əsl azərbaycanlı ailəsinin bütün mənəvi dəyərlərini özündə cəmləşdirən, gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyevanın işıqlı və nurlu əməlləri daim yaşayır və xatırlanır. Görkəmli alimin ideyaları, elmi nailiyyətləri nəinki Azərbaycana, eləcə də dünya tibb elminin inkişafına bu gün də öz töhfələrini verməkdədir.***

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Üzeyir Hacıbəyli ittifaq dövlətinin parlamentində Naxçıvanı təmsil etmişdir

***Azərbaycanın ən qədim diyarlarından biri olan Naxçıvanın muxtar respublika kimi təşkilinin 90 illiyi ölkəmizdə təntənəli surətdə qeyd edilir. Bununla əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: “Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır”.***

Bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə muxtar respublikada keçirilən təntənəli yubiley şənliklərində bu tarixi hadisənin milli suverenlik hərəkatında dəyəri bir daha vurğulandı, 5 min illik tarixi olan Naxçıvanın ən qədim türk yurdlarından biri kimi çatdığı çağdaş durum bir daha yüksək qiymətləndirildi. Dövlət başçısının söylədiyi “Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla həll edilir... Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır” sözləri ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi yolda qazanılmış tarixi nailiyyətlərin mötəbər təsdiqi kimi səsləndi. Naxçıvanın tarixi yüksəlişində, xüsusən son bir əsrdə burada aparılan sivil quruculuq proseslərində ötən nəsillərin gördüyü dəyərli işlər də yubiley tədbirlərində qədirbilənliklə yada salındı.

Bu əlamətdar hadisənin fonunda Naxçıvanın mədəni quruculuğunda fəal iştirak etmiş dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin bioqrafiyasının muxtar diyarla bağlı səhifələrinə nəzər salmağı özümüzə borc bildik. Azərbaycan professional musiqisinin banisi həm də yorulmadan xalqı üçün çalışan ictimai xadim idi. Məhz buna görə də sevimli sənətkara böyük etimad göstərilərək o, 1925-ci ildə Bakı Şəhər Sovetinə, 1937-ci ildə birinci çağırış, 1946-cı ildə isə ikinci çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir. Hər iki dəfə Üzeyir bəy ittifaq dövlətinin parlamentində Naxçıvan Muxtar Respublikasını təmsil etmişdir. Tariximizi gözəl bilən dahi sənətkar Naxçıvanın başına gələn bəlalardan yaxşı xəbərdar idi və bu diyarın yurdsevər insanlarına xüsusi rəğbət bəsləyirdi. O, coğrafi baxımdan Azərbaycandan aralı salınmış Naxçıvanın bədxah ermənilərin əhatəsində hərtərəfli inkişafı, xüsusən milli-mədəni dəyərlərə önəm verilməsi, musiqiçi kadrların yetişdirilməsi üçün əlindən gələni əsirgəmirdi. Elə buna görə də qədirbilən Naxçıvan camaatı dünya şöhrətli sənətkarın onların deputatı olmasından qürur duyurdular.

Azərbaycanı qarış-qarış gəzən, xalqla sıx təmasdan ilham alan Üzeyir bəy Hacıbəyli öz seçiciləri ilə də tez-tez görüşür, onların arzu-istəklərinə həssaslıq göstərirdi.

Ardı 3-cü səhifədə

Üzeyir bəy Naxçıvanda yaşayan həmvətənlərinə xüsusi qayğı göstərirdi. Onların yaşayışı, güzəranı, ehtiyacları həmişə bəstəkarı düşündürürdü. Üzeyir bəy onların problemlərinin həllinə, çözülməsinə yaxından köməklik göstərirdi.

Üzeyir bəy Hacıbəyli mütəmadi olaraq Naxçıvana gedərdi, sakinlərlə görüşərdi, onların arzularının gerçəkləşməsini təmin edərdi. Bu görüşlər adətən Üzeyir bəyin yaxın qohumu, şəxsi katibi Ramazan Xəlilovun iştirakı ilə olardı. R.Xəlilov həm də millət vəkilinin köməkçisi idi. Sonralar dahi sənətkarın ev-muzeyinin yaradıcısı və ömrünün sonuna qədər onun direktoru olan Ramazan Xəlilov o illərdən çox maraqlı söhbətlər edərdi.



Azərbaycanda elə adam tapılmazdı ki, Üzeyir bəyə müraciət etsin və onun xahişi cavabsız qalsın. Belə insanlardan biri də əslən naxçıvanlı olan sevimli şairimiz İslam Səfərli idi. Üzeyir bəy Hacıbəyli Naxçıvana seçiciləri ilə görüşə gedərkən onunla tanış olmuşdu. Professor Ramazan Xəlilov o illəri belə xatırlayırdı: “1945-ci il idi. Üzeyir bəy Naxçıvana seçiciləri ilə görüşə getmişdi. Biz orada ”Qonaq evi”ndə qalırdıq. Bir gün “Qonaq evi”nə əsgər paltarında cavan bir oğlan gəldi. Müharibədən yenicə qayıtmış bu gənc oğlan İslam Səfərli idi. O, Üzeyir bəylə görüşdükdən sonra yazdığı şeirləri göstərdi. Sərraf söz ustası olan böyük sənətkar onları oxudu və şeirləri bəyəndiyini söylədi. Sonra gənc oğlana Bakıya gəlməyi tövsiyə etdi və bildirdi ki, o, mütləq ali təhsil almalıdır. İslam utana-utana Bakıya gəlmək üçün maddi durumunun məhdud olduğunu dedi. Bu zaman Üzeyir bəy mənə işarə etdi ki, bu gənc oğlana pul verim. Mən də zərfə beş yüz manat qoyub ona verdim. Üzeyir bəy onu Bakıda gözləyəcəyini söylədi”.

Çox keçmir ki, İslam Səfərli Bakıya gəlir və birbaşa Ü.Hacıbəylinin yanına gedir. Üzeyir bəy onu mehribanlıqla qarşılayır. Elə oradaca, gənc oğlanın yanında Azərbaycan Dövlət Universitetinin rektoru Abdulla Qarayevə telefon edir və bu istedadlı gəncin universitetə qəbul olunmasını xahiş edir. Qəbul imtahanlarının qurtardığına baxmayaraq, A.Qarayev Üzeyir bəyin sözünü yerə salmır. Beləliklə, İslam Səfərli Azərbaycan Dövlət Universitetinə imtahansız qəbul olunur, təqaüdünü isə hər ay Üzeyir bəy özü verir. Görkəmli şairimiz bu yaxşılığı ömrünün sonuna kimi unutmamışdır.

Üzeyir bəy Hacıbəyli on bir il Naxçıvandan SSRİ Ali Sovetinin deputatı olmuş, xalqın rifahı naminə, onun xoşbəxtliyi üçün var qüvvəsi ilə çalışmış, səlahiyyətli dairələrdə Naxçıvan və naxçıvanlıların mənafeyini qorumuşdur. O, Naxçıvanın mədəni həyatının, iqtisadiyyatının yüksəlməsinə var qüvvəsi ilə köməklik etmişdir. Naxçıvanda musiqi məktəblərinin, musiqi kollektivlərinin təşkilində, kadrlarının yetişdirilməsində, sənaye müəssisələrinin açılmasında onun müstəsna rolu olmuşdur.

Üzeyir bəyin tələbəsi, məşhur “Barı Naxçıvan” mahnısının müəllifi Məmməd Cavadov öz xatirələrində yazırdı: “1946-cı ildə Üzeyir Hacıbəyov seçicilərlə görüşmək üçün bir neçə günlüyə Naxçıvan Muxtar Respublikasına gəlmişdi. Onun gəlişindən xəbər tutan kimi getdim “Qonaq evi”nə. Üzeyir bəy və onunla gələn Ramazan Xəlilovla sevinclə görüşdüm. Üzeyir bəy gülərüzlə dedi:

– Ay Məmməd, sən burada neyləyirsən?

Dedim ki, 1943-cü il, fevralın 23-dən məni Mədəniyyət Nazirliyi Naxçıvana göndərib və elə o vaxtdan da burda işləyirəm.

Soruşdu ki, burda nə iş görürsən? Dedim ki, dram teatrda dirijor və musiqi məktəbində nəzəriyyə fənni üzrə müəllim işləyirəm.

Dedi ki, çox yaxşı. Nədən korluq çəkirsən? Dedim ki, müəllim, sağlığınıza, heç nədən.

Bir neçə gündən sonra o, məni yerli təşkilatlara, o cümlədən Naxçıvan MSSR İncəsənət Komitəsinə (o vaxtlar komitənin sədri Azərbaycanın əməkdar artisti İsa Musayev idi) tapşırıb dedi:

– Məmməd istedadlı tələbələrimdən biridir. Musiqi sahəsində bacarıqlıdır. Ondan səmərəli istifadə edin.

Üzeyir Hacıbəyov Naxçıvanda yerli Maliyyə Nazirliyi və incəsənət komitəsi ilə birlikdə söhbət aparıb, burda Azərbaycan Xalq Çalğı Alətləri orkestrinin təşkil olunması üçün təşəbbüs irəli sürdü. Beləliklə, 47 nəfərdən ibarət orkestrin smetasını tərtib edib Üzeyir bəyə verdilər. O isə, öz növbəsində, Naxçıvan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin smetasını Moskvada Mədəniyyət Nazirliyində təsdiq etdirib Naxçıvan İncəsənət Komitəsinə göndərdi. Üzeyir Hacıbəylinin tapşırığı ilə məni həmin orkestrə dirijor və bədii rəhbər təyin etdilər. Orkestrin fəaliyyəti haqqında o illərdə “Azərbaycan gəncləri” qəzetində məqalə dərc olunmuşdur”.

Məmməd Cavadovun Naxçıvanda dərs dediyi şagirdlərdən ikisi indi Azərbaycanın xalq artistidir. Görkəmli bəstəkarlar Ramiz Mirişli və Nəriman Məmmədov vaxtilə Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə təşkil edilmiş musiqi məktəbində musiqinin sirlərinə yiyələnmişlər.

Naxçıvanda yaşayan yaşlı nəslin yaddaşında Üzeyir bəylə bağlı belə xatirələr çoxdur.

**Səadət QARABAĞLI,**
***üzeyirşünas***
***“Xalq qəzeti”***
***13 aprel 2014-cü il***

# Enerji təhlükəsizliyi güclü iqtisadiyyatın qarantıdır

***Möhkəm təməllər üzərində qurulmuş milli iqtisadiyyatın yaradılması, ilk növbədə, ölkədə bərqərar edilmiş dayanıqlı sabitlikdən və etibarlı xammal-enerji təminatına əsaslanan təsərrüfat əlaqələrinin qurulmasından asılıdır. Bu baxımdan dünyada karbohidrogen mənşəli enerji daşıyıcılarının ehtiyatının gedərək azalması və qiymətinin artması, onların regionlar üzrə qeyri-bərabər paylanması hər bir ölkənin öz müstəqil enerji siyasətini yürütməsi zərurətini ön plana çəkir. Enerjidən asılılığın həm qlobal, həm də regional miqyasda bəzən çox gərgin vəziyyət yaratdığı bir dövrdə enerji strategiyalarının həyata keçirilməsi, daha etibarlı, daha ucuz, ekoloji təmiz və bərpaolunan enerji mənbələrinin tapılıb üzə çıxarılması və onlardan səmərəli istifadə edilməsi məsələləri hər kəsi düşündürən həyati vacib problemlər səviyyəsinə qalxmışdır.***

Ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ sovetlər dövründə, keçən əsrin 70-80-ci illərində Azərbaycanda uzunmüddətli yanacaq-enerji potensialı yaradılması istiqamətində görülmüş işlər digər ittifaq respublikalarını qısqandıracaq səviyyədə idi. O dövrdə ulu öndərin böyük nüfuzu və səyləri sayəsində Azərbaycanın neft-qaz sektorunda dövrün ən yeni texnoloji avadanlıqları tətbiq olunur, ölkəmiz ittifaqın bu sahə üzrə kadr hazırlığı mərkəzi halına gətirilir, su və istilik elektrik stansiyalarının sayı get-gedə artırılırdı. Bütün bunlar Azərbaycanın digər sahələrdə olduğu kimi, enerji təminatı sahəsində də tam müstəqil, kimsədən asılı olmadan inkişaf edib yaşaya bilməsi üçün həyata keçirilirdi.

Bəs enerji təhlükəsizliyi nədir? Bu sual bir çoxlarına yaxşı tanış olsa da, amma gəlinən nəticə odur ki, onu tam həll edib birdəfəlik olaraq gündəlikdən çıxarmaq da mümkün deyildir. Belə demək olar ki, enerji təhlükəsizliyi ölkənin sərhəd toxunulmazlığı və ərzaq təhlükəsizliyi ilə eyni səviyyədə olan əhəmiyyətini qorumaqla milli təhlükəsizlik strategiyasının əsasını təşkil edir. Yəni dünyada suveren şəkildə var olub, müstəqil yaşamaq istəyən hər bir ölkədə bu üç vacib məsələ zəmanət altına alınmalıdır. İri dövlətlər tərəfindən enerji təminatının qlobal siyasətin bir halına gətirildiyi müasir dövrdə enerji ilə təminatda az da olsa, asılı vəziyyətdə olanların nə qədər təzyiq altında olduqlarını xüsusilə son günlərdə daha yaxından görməkdəyik.

Bütün bunlar enerji daşıyıcıları baxımından zənginliyindən və ya enerji sərfi səviyyəsindən asılı olmayaraq, hər bir ölkə üçün çox əhəmiyyətlidir. Buna görə də ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi sahəsində son illərdə görülən işlərin uğurunu ümummilli lider Heydər Əliyevin memarı olduğu milli təhlükəsizlik arxitekturasının davamı kimi qiymətləndirmək lazımdır. Dünyada bəziləri tərəfindən yürüdülən enerji oyunlarına düşmədən sağlam inkişaf xəttini qoruyub saxlayan ölkəmiz özünün müstəqil enerji siyasəti ilə tərəfdaş ölkələrin etibarını qazanmaqla həm də öz enerji təhlükəsizliyini tam şəkildə həll etməyə müvəffəq olmuşdur. Konkret olaraq, ötən dövrdə Naxçıvan Muxtar Respublikasının ərazicə ölkəmizdən ayrı düşməsinə baxmayaraq, daxili enerji resursları ilə özünü tam təmin etməsi və hətta ixrac qabiliyyəti səviyyəsinə gəlib çatması buna tutarlı sübutdur.

Naxçıvan Muxtar Respublikasının enerji təminatı məsələləri özünəməxsusdur. Əgər keçmiş ittifaq dövründə elektrik enerjisi o zaman yaradılmış və ən etibarlı hesab olunan dairəvi sistemə əsaslanaraq ötürülürdüsə, SSRİ-nin dağılması və məlum hadisələrin başlanması ilə belə yanaşmanın doğru olmadığı dərhal üzə çıxdı. Enerji daşıyıcılarının nəqli və ötürülməsinə əngəl yaradılması bütöv bir regionun çıxılmaz vəziyyətə düşə biləcəyini göstərirdi. Bu baxımdan 1990-cı illərin əvvəllərində Naxçıvandakı vəziyyəti və hal-hazırda Avropanın mərkəzində enerji maraqlarının sərt şəkildə toqquşması ilə yaranmış gərginliyi xatırlatmaq kifayətdir. Deməli, enerji və ərzaq kimi vacib sahələrdə nə qədər strateji əməkdaşlıq müqavilələri imzalansa da, nə qədər müttəfiqlər qazanılsa da, ən etibarlı partnyorun ölkənin və regionun öz daxili imkanlarına əsaslanan öz milli yanacaq-enerji kompleksi olduğunu deyə bilərik. Dünyada enerji daşıyıcılarının qeyri-bərabər paylandığı, yanacaq-enerji ehtiyatlarından səmərəli istifadəyə imkan verən son texnologiyaların iri şirkətlərin əlində olduğunu nəzərə alsaq, o zaman bir daha görmək olar ki, enerji təhlükəsizliyi məsələsində görülən hər iş, ümumilikdə, ölkənin ümumi iqtisadi inkişaf məsələlərini şərtləndirən, onların dayanıqlılığını müəyyən edən mühüm amildir.

Son dövrlərdə Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülmüş işləri bir neçə mərhələdə ümumiləşdirmək mümkündür. Əgər ilk dövrdə Naxçıvanda kəsilmiş təbii qaz və elektrik enerjisi probleminin həlli üçün yollar axtarılırdısa, sonralar bu məsələnin həll olunması ilə muxtar respublikada əhalinin və istehsal müəssisələrinin enerji ilə təminatı həyata keçirilmişdir. Ancaq muxtar respublikanın coğrafi mövqeyi və regiondakı geostrateji durum buraya



təkcə təbii qaz və elektrik enerjisi ötürülməsi ilə kifayətlənmədən regionun öz daxili imkanlarının dövriyyəyə cəlb edilməsini tələb edirdi. Enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində bu üçüncü mərhələ Naxçıvan Muxtar Respublikasının hidroenerji potensialından istifadəni özündə ehtiva edərək qısa müddət ərzində regionun tələbatlarından da artıq miqdarda güclü enerji potensialı yaratmağa imkan vermişdir.

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi ölkə başçısı səviyyəsində daim diqqətdə saxlanılır. 2010-cu il oktyabr ayının 5-də Biləv Su Elektrik Stansiyasının açılışında iştirak edən dövlət başçısı bu əlamətdar hadisənin ***“sadəcə olaraq, görülən işlərin yeni mərhələsi”*** kimi çox böyük əhəmiyyəti olduğunu vurğulamışdır. Biləv Su Elektrik Stansiyasının açılışında dövlət başçısı demişdir: ***“Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir… Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür… Enerji təhlükəsizliyi əsas məsələdir və bu gün bu, Naxçıvanda öz həllini tapır. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır. Hər halda, biz buna nail olmaq üçün bütün tədbirləri görürük”.*** 2010-cu ildə Naxçıvana səfəri zamanı enerji təhlükəsizliyinin yeni mərhələsinin başlandığını bildirən ölkə rəhbəri Naxçıvanda yeni hidroenerji ehtiyatlarının potensialından istifadə olunmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu önə çəkmişdir. Əgər 2006-cı ildə Naxçıvana təbii qazın verilməsi ilə Modul Elektrik Stansiyasının işə düşməsi muxtar respublikada ciddi bir dönüş yaratmışdısa, artıq indi bir-birinin ardınca su elektrik stansiyalarının istifadəyə verilməsi nəticəsində muxtar respublika özünün heç kimdən asılı olmayan enerji potensialı ilə növbəti mərhələyə, bu regionun enerji mərkəzi halına keçməyə başlamışdır. Bu il aprel ayının 7-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyalarının işə salınması mərasimində iştirak edən dövlət başçısı enerji təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işləri belə xarakterizə etmişdir: ***“Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır. Son illərdə biz Vayxır, Biləv Su Elektrik stansiyalarının açılışlarını qeyd etmişik və bu gün Naxçıvanın enerji ilə təminatı su elektrik stansiyalarının xətti ilə icra edilir. Bu da Naxçıvanı dünya miqyasında çox nadir bir respublika kimi təqdim edir. Çünki dünyada çox nadir hallarda daxili tələbat bərpa olunan enerji növləri hesabına təmin edilir. Bu gün Naxçıvanın reallıqları belədir ki, su elektrik stansiyalarının fəaliyyəti sayəsində Naxçıvanın tam enerji təminatı həll edilib”.***

Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirindəki nitqində də Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunmasının əhəmiyyətindən danışaraq demişdir: ***“Bu gün Naxçıvan nəinki özünü enerji ilə tam şəkildə təmin edir, hətta ixrac edir. Ən önəmlisi ondan ibarətdir ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. İndi Naxçıvanın elektrik enerjisi potensialı 220 meqavata yaxındır. Bu imkanları son illərdə tikilmiş elektrik stansiyaları yaratdı. Bu gün elektrik enerjisi ilə heç bir problem yoxdur. Nəinki bu gün, gələcəkdə də olmayacaqdır. Çünki biz, əlbəttə, öz enerji potensialımızı elə təşkil etməliyik ki, uzun illər bundan sonra da sürətli inkişafımızı təmin etsin. Çünki heç bir inkişaf elektrik enerjisiz mümkün deyildir. Naxçıvanın artan iqtisadi potensialı, sənaye inkişafı, artan əhalisi diktə edir ki, elektrik enerjisi ilə təchizat daim yüksək səviyyədə təşkil edilsin. Yəni, bir sözlə, bu gün bu məsələ öz həllini tapıbdır”.***

Naxçıvanda yeni su elektrik stansiyalarının tikintisi bu gün də ölkə rəhbərinin diqqət mərkəzindədir. Bu yaxınlarda Azərbaycan Prezidentinin İran İslam Respublikasına rəsmi səfəri zamanı Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında “Ordubad və Marazad Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında Saziş” imzalanmışdır. Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsindən sonra Naxçıvanın elektrik enerjisinə olan tələbatı tamamilə su elektrik stansiyaları hesabına ödəniləcək, muxtar respublikanın bu sahədə ixrac potensialı daha da artacaqdır.

*İnamlı inkişaf üçün sağlam düşüncə və qəti addımlar tələb olunur. Əgər təbiətin töhfəsi ilə qətiyyətli ideyalar üst-üstə düşərsə, onda insanın yaradıcı qüvvəsi hər şeyə qadirdir. Hələ lap yaxın keçmişdə qaranlıq, soyuq gecələr keçirən Naxçıvanın bugünkü çıraqban mənzərəsi bunun hər yerdə mümkünlüyünə ən inandırıcı sübutdur. Bütün bunlar isə burada, blokada şəraitində yaşayan Naxçıvanda həyata keçirilmişdir. Keçmişə diqqət, gələcəyə məhəbbət, insana hörmət! Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözləri ilə ifadə etsək:* ***“Budur bugünkü müasir yanaşma və budur Naxçıvanın inamlı inkişafı”.***

**Əli CABBAROV**

## Rayon prokurorluğu maarifləndirici tədbir keçirib

***Babək Rayon Prokurorluğu Nehrəm Kənd Mərkəzində maarifləndirici tədbir keçirmişdir.***

Tədbirdə Babək rayon prokuroru, ədliyyə müşaviri Əsrafil Əsgərov çıxış edərək bildirmişdir ki, təbii qazın, elektrik və ya istilik enerjisinin talanmasına görə cinayət məsuliyyəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə edilmiş 189-1 maddəsində öz əksini tapmışdır. 189-1.1-ci maddənin tələbinə görə, təbii qazın, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla enerji resurslarının talanmasına görə – bu əməllər xeyli miqdarda ziyan vurmaqla törədildikdə bu əməlləri törətmiş şəxslər 1000 manatdan 3000 manatadək miqdarda cərimə və ya 2 ilədək müddətdə islah işləri ilə cəzalandırılırlar. Qanunsuz qoşulma dedikdə bu şəbəkələrə cavabdehlik daşıyan müvafiq qurumun icazəsi olmadan hər hansı müdaxilə və nəticədə, talanmış enerji resurslarının dəyərini ödəmədən həyata keçirilən hüquqazidd hərəkətlər başa düşülməlidir. Cinayət Məcəlləsinin 189-1.2-ci maddəsinin tələbinə əsasən, eyni əməlləri, yəni 189-1.1-ci maddədə nəzərdə tutulan əməlləri külli miqdarda ziyan vurmaqla törədənləri 3000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 3 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir. Burada külli miqdar dedikdə cinayət nəticəsində vurulan ziyan 7000 manatdan yuxarı məbləğdə olmalıdır. Məcəllənin 189-1.3-cü maddəsinə əsasən, təbii qaz, elektrik və istilik enerjisi təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələrinin daha ağır cəzalarla cəzalanması nəzərdə tutulmuşdur. Belə ki, maddənin tələbinə görə, təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisəsinin səlahiyyətli nümayəndəsinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi səbəbindən bu məcəllənin 189-1.1, 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmamasına görə təqsirkar şəxs 3000 manatdan 4000 manatadək miqdarda cərimə və ya 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Məcəllənin 189-1.4-cü maddəsinə əsasən, təbii qaz, elektrik və istilik enerjisi təchizatı müəssisələrinin səlahiyyətli nümayəndəsinin xidməti mövqeyindən sui-istifadə etməklə tamah və sair şəxsi maraq üzündən bu məcəllənin 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısını almamasına görə cinayət törədən şəxs 4000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 4 ildən 6 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Babək rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas Vüqar Hüseynov meşələrdə və qoruqlarda, milli və ya təbii parklarda ağacların və ya kolların, eləcə də meşə fonduna aid olmayan ağacların və ya kolların qanunsuz kəsilməsi ilə bağlı Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəzalar və cərimələr barədə məlumat vermişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

## “Araz-Naxçıvan” çempionluğa yaxınlaşır

***Futbol üzrə Azərbaycan I divizionunun 25-ci turu çərçivəsində “Araz-Naxçıvan” futbol komandası azarkeşlərini yenə sevindirdi. Səfərdə “Lokomotiv”in qonağı olan qırmızı-ağlar 3 xalı 3 qolla əldə etdilər. Biləcəridə keçirilən oyundakı qələbədən sonra əldə edilən xallar komandamızı çempionluğa bir addım da yaxınlaşdırdı.***



Bakıya yollanarkən “Araz-Naxçıvan” komandasının baş məşqçisi Əsgər Abdullayev 3 xalın vacibliyindən xəbərdar idi və mövsümün son turlarında itiriləcək hər hansı bir xalın nə qədər böyük əhəmiyyəti olduğunu yaxşı bilirdi. Odur ki, yetirmələrinə mütləq şəkildə qələbə qazanmağı tapşıran baş məşqçi heyətə də, necə deyərlər, əl gəzdirməli olmuşdu. Paytaxtda keçiriləcək oyunun ilk 18-liyinə Bəxtiyar Soltanov, Əziz Hüseynov, Elvin Ağamalov və Eşqin Quliyev daxil edilməzkən, Ruslan Zamanov oyunu kənardan izləməli oldu. B.Soltanovun cəzalı olması onun oyunda iştirakına imkan verməmişdi. E.Quliyev isə özünü yaxşı hiss etmədiyindən meydana çıxa bilmədi. Əvəzində baş məşqçi müdafiə xəttini Ruslan Abıyev-Mikayıl Rəhimov-Tural Hümbətov-Əlimirzə Daşzərini kvartetinə tapşırmışdı. Cavid Həsənov və Akif Tağıyev müdafiənin önündə olduqları halda Tərlan Xəlilov dirijorluq bacarığını nümayiş etdirməyə çalışdı. İrfan Hüseynov və Elmin Çobanov isə, hər zaman olduğu kimi, David Canıyevə hücumda köməklik etməklə məşğul idilər.

Rəqib isə liderlə oyunda baxımlı oyun sərgiləməyi qarşısına əsas məqsəd kimi qoymuşdu. Əslində, “Lokomotiv”in hədəfi mövsümün əvvəlindən belli idi: bu komanda ona görə yaradılıb ki, gənc futbolçular burda daha çox oyun təcrübəsi qazansın və “Bakı”ya köməklik etsinlər. Odur ki, baş məşqçi İlqar Hüseynov meydana daha çox gəncləri buraxmışdı. Buna baxmayaraq, Biləcəri təmsilçisi sürətli oyunu və baxımlı futbolu ilə azarkeşlərin alqışını qazandı.

3 xalın vacibliyini dərk edən “Araz-Naxçıvan” futbolçuları ilk dəqiqələrdən üstünlüyü ələ aldılar. Topa daha çox yiyələnən və oyunu rəqibin cərimə meydançasında quran qırmızı-ağlar 6-cı dəqiqədə hesabı aça bilərdilər. Tərlan Xəlilovun cərimə zərbəsindən vurduğu top qapı tirinə tuş gəldi. Az sonra əks-cinahda futbolçumuzun qarşısını rəqib kobudluqla aldı. Bu dəfə Akif Tağıyev qapı önünə mükəmməl asma etdi. Müdafiəçilərdən yayınan Mikayıl Rəhimov başla gözəl oynadı və toru silkələdi – 0:1. Qol vurmalarına baxmayaraq, muxtar respublika təmsilçisi hücumlara ara vermədi. Az sonra İrfan Hüseynov tablodakı rəqəmi dəyişə bilərdi. Elmin Çobanovun uzun reydi və David Canıyevin mükəmməl ötürməsindən sonra İ.Hüseynova yalnız topa toxunmaq qaldı. Lakin hücumçumuz topu boş qapı əvəzinə havaya göndərdi. Bir neçə dəqiqə sonra İrfan yenə diqqət mərkəzinə düşdü. Bu dəfə müdafiəyə yardımçı olmağa gələn hücumçumuz meydan sahiblərinin futbolçusu tərəfindən ciddi qayda pozuntusu ilə üzləşdi. Hakim Vüsal Əliyev isə tərəddüd etmədən Kənan Cəfərova birbaşa qırmızı vərəqə göstərərək onu meydandan uzaqlaşdırdı. Azlıqda qalan “Lokomotiv” qarşısında daha rahat oynayan komandamız ilk hissədə bir neçə dəfə qol imkanı əldə etsə də, bunları boşa verdi.

İkinci hissəyə Əsgər Abdullayev dəyişikliklərlə başladı. İlk olaraq, İrfan Hüseynovun əvəzinə meydana Azər Məmmədovu buraxan baş məşqçi daha çox qol vurulması niyyətində olduğunu, komandanın hücuma atılmasını bir daha nümayiş etdirdi. Dəyişikliklərin bəhrəsi özünü 54-cü dəqiqədə göstərdi. Komanda yoldaşından ideal ötürmə alan Tərlan Xəlilov qüvvətli zərbə ilə rəqib qapıçını ikinci dəfə məyus etdi – 0:2. Artıq rahat bir şəkildə qələbəni bayram etməyə hazırlaşan muxtar respublika təmsilçisi rəqib qapısı önündə yenidən lövbər salmağa başladı. Təbii ki, ardıcıl hücumlar qarşısında bir qədər geri çəkilən meydan sahibləri daha bir dəfə məyus oldular. Uzun ötürməni eyni gözəlliklə ram edən Azər Məmmədov David Canıyevə assistentlik etdi. Hücumçumuz isə əlinə düşən fürsətdən maksimum yararlandı – 0:3. Bu, Davidin cari mövsümdə 14-cü qolu oldu.

68-ci dəqiqədə meydandakı futbolçuların sayı bərabərləşdi. Belə ki, komandamızı əks-hücumda yaxalayan “Lokomotiv”li futbolçular hesab arasındakı fərqi azaltdı. Cərimə meydançasında qapıçını da keçən rəqibin hücumçusu qapıya zərbə endirdi. Lakin Ruslan Abıyev burda əli ilə oynadı. Əvəzində isə referi onu da meydandan uzaqlaşdırdı və qapımıza penalti zərbəsi təyin etdi. Topa yaxınlaşan Ülvi Quliyev isə görüşdə son nöqtəni qoydu. Bununla, “Araz-Naxçıvan” cari mövsümdə 20-ci qələbəsini qazandı.

Qeyd edək ki, komandamız növbəti oyununu aprelin 19-da doğma arenada Qazaxın “Göyəzən” klubuna qarşı keçirəcək.

**✍ Ceyhun MƏMMƏDOV**

| S/N | Komandalar | O | Q | H | M | T-f | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Araz-Naxçıvan | 25 | 20 | 4 | 1 | 45-9 | **64** |
| 2 | Neftçala | 24 | 16 | 4 | 4 | 64-15 | **52** |
| 3 | Qaradağ Lökbatan | 25 | 15 | 7 | 3 | 41-11 | **52** |
| 4 | Şahdağ | 25 | 15 | 4 | 6 | 48-15 | **49** |
| 5 | Ağsu | 25 | 14 | 5 | 6 | 44-23 | **47** |
| 6 | Şuşa | 24 | 12 | 8 | 4 | 45-19 | **44** |
| 7 | Turan-T | 25 | 11 | 5 | 9 | 44-37 | **38** |
| 8 | Karvan | 25 | 11 | 5 | 9 | 38-43 | **38** |
| 9 | Lokomotiv | 25 | 11 | 2 | 12 | 37-45 | **35** |
| 10 | Mil-Muğan | 25 | 8 | 6 | 11 | 24-30 | **30** |
| 11 | MOİK | 25 | 7 | 6 | 12 | 30-42 | **27** |
| 12 | Bakılı | 25 | 6 | 6 | 13 | 27-43 | **24** |
| 13 | Şəmkir | 25 | 6 | 6 | 13 | 24-37 | **24** |
| 14 | Kəpəz | 25 | 5 | 4 | 16 | 23-30 | **19** |
| 15 | Göyəzən | 25 | 2 | 2 | 21 | 11-78 | **8** |
| 16 | Energetik | 25 | 1 | 4 | 20 | 7-74 | **7** |

***Muxtar respublikamızda günü-gündən geniş vüsət alan kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır. Son 18 ildə Naxçıvanda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdə, meyvə bağlarının, yaşıllıq zolaqlarının, gülkarlıq sahələrinin həcmi genişləndirilməkdədir.***

## İməciliklər mütəşəkkilliklə təşkil olunmuşdu



Aprelin 12-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Həmin gün Naxçıvan şəhərinin Əliabad qəsəbəsində “Şorsu” adlanan ərazidəki 2 hektarlıq yeni salınmış bağda 2300 ədəd, dairəvi yolun kənarında bərpa məqsədilə 1200 ədəd meyvə ağacı əkilmiş, Naxçıvan-Batabat avtomobil yolunun sağ və sol hissələrində yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş və yaşıllıqlar suvarılmışdır.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda Naxçıvan-Sədərək magistral yolunun Dəmirçi və Düdəngə kəndlərindən keçən hissəsində 1000 ədəd bərpa məqsədilə meyvə, 1700 ədəd meşə ağacı, Axura-Həmzəli yolunun kənarlarına 500, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin ərazilərinə 1000 ədəd ağac əkilmiş, yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Bölgə sakinləri Naxçıvan-Ordubad magistral yolunun Çeşməbasar kəndindən keçən hissəsində bərpa məqsədilə 350 ədəd meşə, Yarımca, Qahab kəndlərində yol kənarlarına 950 ədəd meyvə, Sirab kəndində isə 750 ədəd meşə ağacı əkmişlər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Aşağı və Yuxarı Əylis kəndləri ərazisindəki bağlarda yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, Yuxarı Əylis kənd məscidinin ətrafına 110 ədəd meyvə, 240 ədəd gül kolu, 10 ədəd həmişəyaşıl ağac əkilmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun Yaycı kəndindən keçən hissəsinə 750 ədəd meyvə, Culfa şəhərinin giriş hissəsindən Culfa gömrük-keçid məntəqəsinə qədər yol kənarlarına 270 ədəd çinar ağacı əkmişlər.

Kəngərli sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı bağlara bərpa məqsədi ilə 300 ədəd meyvə ağacı, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər torpağa birillik gül toxumları əkmiş, su arxları çıxararaq ağacları suvarmışlar.

Şahbuz rayonunda Daylaqlı kəndi ərazisində 0,8 hektarlıq yeni salınmış meyvə bağında 514 ədəd, 0,5 hektarlıq ərazidə isə bərpa məqsədilə 270 ədəd meyvə ağacı, Şahbuz şəhərinin park və xiyabanlarında 72 ədəd gül kolu əkilmişdir.

Sədərək rayonunda Qaraağac kəndində yeni salınmış 2 hektarlıq bağda 1100 ədəd meyvə ağacı əkilmiş, 2 nömrəli məktəbin və mərkəzi xəstəxananın həyətində yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

İməciliklərdə 24 min 172 nəfər iştirak etmiş, ümumilikdə, 13 min 344 ədəd olmaqla, 3070 ədəd meyvə, 9952 ədəd meşə, 10 ədəd həmişəyaşıl, 312 ədəd gül və bəzək kolları əkilmişdir.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Naxçıvan şəhəri, “Şahtaxtı” küçəsi, döngə 7, ev 5-də yaşamış İsmayılov Əvəz Xəlil oğlunun adına verilmiş 3775 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin kollektivi iş yoldaşları Şəhla Kazımovaya, anası
**SOLMAZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Stomatologiya şöbəsinin kollektivi iş yoldaşları İldırım Heydərova, əzizi
**NƏCİBƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin professor-müəllim və tələbə kollektivi Təməl tibb fənləri kafedrasının müdiri Elsevər Əsədova, əzizi
**SƏMƏNNAZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Fənlərin tədrisi metodikası kafedrasının kollektivi Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Ordubad Rayon Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Babək Rayon Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Aypara Behbudova və kitabxananın kollektivi Mübariz Nuriyevə, əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Zülfiyyə Sadıqova, Nəzakət Quliyeva, Kəmalə Məmmədova, Nəzakət Gülməmmədova, Dilarə Rzayeva və İradə Əsgərova iş yoldaşları Zəkiyyə Salmanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nüşabə Əliyeva, Bəhriyyə Novruzova, İlhamə Nəsirova, Bəhriyyə Əliyeva, Bilqeyis Ələsgərova və Esmira Firudinbəyova iş yoldaşları Zəkiyyə Salmanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Sevindik Vəliyevə və Elsevər Əsədova, əzizləri
**SƏMƏNNAZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin magistratura üzrə dekanı Etibar Məmmədov, dekan müavini Asəf Əliyev və dekanlığın əməkdaşları Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Culfa Rayon Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Sədərək Rayon Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 339